Tural Turan

# "Güllələ öz qəbrini..."



***

İçirəm göy üzünün buludlarını,
Sənin sağlığına, yalqız başdaşım.
Yemişəm tanrının umudlarını,
Yemişəm ey... kağız-kağız, başdaşım...

Tanı təkliyinin rəngini, tanı...
Yenə gözlərindən yalqızlıq damır...
Gördün dərdləşməyə yoxdu adamın,
Çağır, çağır bircə ağız, başdaşım...

Sənin üzünəcə doğulur bu dan...
Mən sənin nöqtənəm, sən mənim nidam!
Tələsmə, öləcək mənim yarım da,
Tapılacaq sənə bir "qız"... başdaşım...

***

Dəli kimi ağlayır pəncərəmiz,
Hər aynada bir yağış çiçəkləyir.
Bizi atıb gedən ayaq izinin
Arxasınca bir baxış çiçəkləyir...

Bir gülüş boylanır qorxu içində,
Öldürmə bu eşqi, ay qız, acından.
Solğun dodaqların axşam köçündə,
Tək-tənha ağaran diş çiçəkləyir...

İtibdi yenə də ömrünün tamı,
Yenə gözlərindən uzaqlıq damır...
Döyünür baxışı bu qız axşamın,
Yenə yanağında qış çiçəkləyir.

***

Sən mənim sonuncu etdiyim dua,
Sən mənim tanrıya sonuncu qapım.
Danışdım mən səndən bir axar suya,
Mən axıb gedəni de hardan tapım?!

Sən - gələn payızın son küləyisən,
Uçub gedəcəksən payız axşamı...
Sən elə dünyanın daş ürəyisən,
Sevmədin mənimtək yalqız axşamı...

Sən mənim alnımda sonuncu yazı,
Sən mənim ovcumda cücərən işıq...
Göndər baxışını məktubla, quzum,
Gözümə toy edim burda mən yazıq...

## Elə sevəsən ki...

*(Sonuncu sevgimə)*

Elə sevəsən ki - nəbzi vura göy üzünün.
Elə sevəsən ki - unudasan
ağrıların key üzünü.
Elə sevəsən ki - baxışlarını
böyük hərflərlə yazasan gülüşlərinə...
Elə sevəsən ki - təbəssümün keçməyə
təqvimin ac dişlərinə...
Elə sevəsən ki - yasəmən qoxusu
önündə diz çökə...
Elə sevəsən ki - salxım söyüd
oğrun baxa,
qəşş eləyə boynunu bükə-bükə...
Elə sevəsən ki - anan da qısqana!
Elə sevəsən ki - yatmış körpə yanından keçən addım səsi kimi, ehmalcana...
Elə sevəsən ki - Tanrı da
salam göndərə yaz yağışından.
Elə sevəsən ki - yağışlar
üzr istəyə göy qurşağından.
Elə sevəsən ki - Tanrı da
salam göndərə yaz yağışından.

***

...tut əlindən yaşamağın,
apar böyüt uzaqlarda.
...yetim-yesir söyüşləri
öyüt, öyüt uzaqlarda.

...Göy üzündə gün qaşınır,
əynimdə Vətən qaşınır.
...damarların qan yaşını
üyüt, üyüt uzaqlarda.

...toxum səpib qəbirləri,
Tanrı bizdən zaman dərir.
Kim zorladı kölgələri
söyüd-söyüd uzaqlarda...

***

Ölümünə məktub yazır,
Bu dünyanın başına kül.
Hərdən Tanrıdan da küsür,
Bu dünyanın başına kül.

Çadrasını atır bu Dan -
Göyə çıxır yerə batan...
Özünü qucaqlayıb yatan,
Bu dünyanın başına kül.

Doğulmaqdan yorularmış,
Günahında durularmış...
Öz qəbrinə vurularmış,
Bu dünyanın başına kül.

Kölə oldu insana din!
Gül bitirir kolluqda kin.
Mən ölsəm nə tapacaq ki,
Bu dünyanın başına kül...

Tural Turan, burax, gəlsin;
Alın yazın qonaq gəlsin.
Köçür ki, ağ varaq gəlsin,
Bu dünyanın başına kül...

***

Ömrü kirayə verirəm,
bəs kim yaşamaq istəyər?
Kim istəyər ki, de, şair,
Kim ömrü yamaq istəyər?

...Ömür yamaq, bu gün yamaq!
Alın yazım da boz yumaq!
Yaxasındakı kirə bax,
Hamı ömrü ağ istəyər...

Bir ölüm gəz yarınmağa,
ümid olma qarımağa.
Ömrün saçın daramağa,
Qoca da daraq istəyər.

***

...Sığalla göy üzünün saçlarını,
Üzünə düşən buludlarına daraq çək!
Bu gecə özün doğulacaqsan deyəsən,
Yaradanın baxışlarına varaq çək;
Qorxma, əyilmək sayılmır,
Tanrının əllərindən öp,
alın yazına xatir...

Özünü də sev arada,
Allah ümidinə buraxma ağrılarını.
Vurul özünə, adam,
vurul, dualarının təbəssümünə!
Güllələ öz qəbrini,
ölmədən ölümünü gör məzarının.

Bir şam yandır,
yuxuların qorxmasın öz təkliyindən.
Bütün ölüləri inandır,
inandır ki,
Bir də gəlsələr
yenə duaları aldadacaq...
Yenə aldadacaq, yenidən...
Soyuq bir yanvarı
gün işığı aldadan kimi...
Unutma, bu gecə sən doğulacaqsan,
öp, işarə qoy əlinə!!!